

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 24 (23.666)

*5 fevral 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edərək azad edilmiş torpaqlarda minatəmizləmə işlərinin birinci dərəcəli vəzifə olduğunu deyib. Agentliyin qarşısında böyük vəzifələr durduğunu vurğulayan ölkəmizin başçısı diqqətə çatdırıb ki, ilk növbədə, peşəkar kadrlar seçilib agentliyin işinə cəlb edilməli, keçmiş ANAMA qurumunun kadrlarından istifadə edilməlidir. Azad edilmiş torpaqlarda işləri sürətlə, keyfiyyətlə qurmaq və aparmaq üçün, əlbəttə ki, agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır.

Agentliyin fəaliyyətinin təşkili ilə bağlı bir sıra tapşırıqlar verən ölkəmizin başçısı bildirib ki, bu günə qədər işin, təqribən, 80-90 faizini Müdafiə Nazirliyinin istehkamçıları görüblər. Agentlik bundan sonra işin əsas hissəsini öz üzərinə götürməlidir. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlanmalı, Dövlət Minatəmizləmə Agentliyi ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək, xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilməlidir. Agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır.

Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov dövlətimizin başçısına minnətdarlığını bildirərək Onu əmin edib ki, agentlik bütün imkanlarını səfərbər edəcək və qarşıya qoyulmuş vəzifələrə, hədəflərə nail olacaqdır.



## Hərbi qulluqçularımız "Qış təlimi-2021"də peşəkarlıq nümayiş etdirirlər



Qardaş Türkiyə Respublikasında keçirilən "Qış təlimi-2021"də Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdirirlər.



Bir neçə gün əvvəl qış təlimində iştirak etmək məqsədilə Türkiyə Respublikasına yola salınan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları təlimə hazırlıq məşqlərini bitirərək aktiv fazada fəaliyyətləri icra edirlər. Hərbi qulluqçularımızın bir qrupu Qars şəhərindəki təlim mərkəzində çətin relyefli və qarlı ərazilərdə, digər bir qrupu isə Kayseri şəhərində paraşütçü komandolar hazırlayan mərkəzdə məşqlərə cəlb ediliblər. Çətin iqlimi və relyefi ilə fərqlənən ərazilərdə döyüş əməliyyatlarının aparılması tapşırıqlarını yerinə yetirən heyətlərin qış şərtlərində ərazidə məskunlaşma qabiliyyətləri və təchizatları da yoxlanılır.

**Nəriman NƏCƏFOV**

## İmtahanların şəffaf şəkildə keçirilməsi diqqətdə saxlanılıb

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi yanvar ayında da fəaliyyətini davam etdirərək üzərinə düşən vəzifələrin icrasını həyata keçirib. Ay ərzində dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət olunub və 1 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 2 qərarı dəyişdirilib.*

Yanvar ayında müəllimlərin işə qəbulu ilə bağlı keçirilən müsabiqə başa çatıb. Müsabiqənin nəticələrinə görə imtahanlarda iştirak edən 248 namizəddən 136 nəfəri keçid balını toplayıb və müvafiq vəzifələrə təyin olunmaq üçün sənədləri aidiyyəti üzrə göndərilib.

Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara uyğun olaraq yanvarın 14-dən təhsilverənlərin sertifikatlaşdırılması imtahanlarına start verilib. Fevralın 1-nə qədər, ümumilikdə, 854 təhsilverən sertifikasiya imtahanında iştirak edib. Onlardan 534-ü müvafiq keçid balını toplayıb. Muxtar respublika üzrə riyaziyyat müəllimlərinin sertifikasiyası tam başa çatdırılıb. Bu istiqamət üzrə 597 müəllim imtahanda iştirak edib. Onlardan 462-si müvəffəqiyyət qazanıb. Hazırda sertifikasiya imtahanları davam edir.

Yanvarın 23-də Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə 396 vakant vəzifənin tutulması üçün müsabiqə elan edib. Qeyd edək ki, bu istiqamətdə ilk dəfə olaraq keçiriləcək müsabiqəyə sənəd qəbulu fevralın 23-nə qədər davam edəcək.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nda bir sıra dəyişikliklərin edilməsi ilə əlaqədar olaraq yanvarın 25-də dövlət qulluqçusuna ixtisas dərəcəsinin



verilməsinin yeni qaydaları haqqında seminar keçirilib. İnzibati və yardımçı vəzifələrin ayrı-ayrı təsnifatları üzrə növbəti ixtisas dərəcələrinin verilməsi zamanı gözlənilən qulluq müddətləri, vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsi proseduru və digər məsələlər barədə keçirilən seminarda 51 dövlət orqanının nümayəndəsi iştirak edib.

Ötən ay ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğu və müəllimlərin sertifikasiyası sahəsində təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 14, sınaq imtahanlarında isə 129 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Səhiyyə xidmətinin səviyyəsi yüksəldilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini yanvar ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələr üçün dializ materialları və dərman preparatları, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən və respublika Gigiyena Epidemiologiya Mərkəzindən tibb işçilərinin COVID-19-a görə peyvəndi üçün vaksin, işlənmiş şprislərin təhlükəsizliyi üçün qutular və sertifikat gətirilib.

Ay ərzində muxtar respublikanın səhiyyə müəssisələrində kadrların



bilik və bacarıqlarının artırılması məqsədilə 2 həkim-rezident Bakı şəhərində, 3 tibb bacısı Naxçıvan şəhər tibb müəssisələrində təcrübə keçməsi üçün göndərilib. Naxçıvan Tibb Kollecinin 67 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib.

Muxtar respublikada elmin inkişafına göstərilən diqqət və qayğı sanballı tədqiqatların aparılmasına, müxtəlif sahələri əhatə edən yeni kitabların ərsəyə gəlməsinə geniş imkanlar yaradıb. Bu prosesdə muxtar respublikanın səhiyyə işçiləri də fəallıq göstərir, elmi araşdırmalar aparır və təcrübi biliklərini ümumiləşdirərək kitab halında nəşr etdirirlər. Yüksək poliqrafik keyfiyyətlə çap olunmuş "Naxçıvan Muxtar Respublikasının Epidemioloji Atlası" və "Təcili Tibbi Yardım" kitabları da bu qəbildəndir. Ötən ay hər iki kitabın təqdimatı keçirilib.

Naxçıvan Diaqnostika Müalicə Mərkəzində ixtisaslı həkimlər tərəfindən yanvarın 14 və 15-də qazilər, Vətən müharibəsi iştirakçıları və şəhid ailələrindən olan 766 nəfər hərtərəfli ambulator müayinədən keçirilib, 11 nəfərdə cərrahi əməliyyat, 2 nəfərdə angioqrafiya müayinəsi aparılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Şərur və Şahbuz rayonlarında 17 Qarabağ müharibəsi qazisini evlərində hərtərəfli tibbi müayinədən keçirib. Naxçıvan Muxtar Respublika Xəstəxanasının və Doğum Mərkəzinin həkim briqadası Şərur Rayon Mərkəzi Xəstəxanasında təşkil etdiyi aksiyada 173 nəfər tibbi müayinədən keçirilib, 2 nəfərdə tonzillektomiya, 1 nəfərdə ümumi cərrahiyyə, 2 nəfərdə ginekoloji əməliyyat aparılıb.

Koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində məktəblərdə hər gün termometriya aparılması və dezinfeksiya işləri davam etdirilib. Həmçinin məktəbəqədər müəssisələrdə, məktəblərdə, ictimai iaşə, su təchizatı qurğuları və digər obyektlərdə sanitar-gigiyenik vəziyyətə nəzarət yoxlamaları aparılıb.

Qanla işləyən tibb işçiləri, hemofiliya, dializ xəstələrindən 800 nəfərdə hepatitə qarşı vaksinasiya, mövsümi qripə qarşı risk qruplarından 5 min 960 nəfərdə peyvənd icra olunub.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Şahbuz rayonunun Kolanı, Aşağı Qışlaq, Yuxarı Qışlaq kəndlərində təhsil işçilərindən 34, kənd sakinlərindən 20 qadında süd vəzinin profilaktik müayinəsi aparılıb, 5 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət edilib.

Ötən ay Naxçıvan Muxtar Respublikası tibb müəssisələrinin 2020-ci ilə aid yekun hesabatları əsasında təhlillər aparılaraq statistik məlumatlar hazırlanıb.

Beş tibb müəssisəsinin kollektivi COVID-19 virus infeksiyasına qarşı mübarizə tədbirlərində səmərəli fəaliyyətlərinə görə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı ilə, həmçinin 2 həkim "Səhiyyə əlaçısı" adı, 2 həkim, 1 orta tibb işçisi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən Fəxri fərmanla təltif olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikanın cənub-şərqində, Araz çayının sol sahilində yerləşən Ordubad ilin hər fəslində heyranlıq doğurur, mənzərələri könülləri isti duyğulara kökləyir. Azərbaycanın incisi, qədim Ordubad diyarı bu gün öz inkişafının yeni mərhələsini yaşamaqdadır. Rayon öz tarixi simasını saxlamaqla gündən-günə abadlaşır, yeniləşir, müasirləşir. Bölgəyə xas memarlıq ənənələri qorunmaqla yenidən qurulan binalar, yaradılan nümunəvi məhəllələr, rahat yollar, gözoxşayan parklar Ordubadın yeni simasının reallıqlarıdır. Zəngəzur dağlarının qoynuna sığınan bu rayon indi öz müasirliyi ilə yanaşı, həm də ecazkar gözəllikləri ilə buraya üz tutan qonaqları özünə heyran edir. Qədim diyar bu gün muxtar respublikanın əsas mədəniyyət mərkəzlərindən biri olmaqla, muzeylər, tarixi abidələr, parklar, fəvvarələr, yaşıllıqlar, uca çinarlar şəhəridir.*



*İnkişaf edən bölgələrimiz*

# Həyata keçirilən tədbirlər nəticəsində Ordubad rayonunun davamlı inkişafı təmin olunub

Ordubadı addım-addım, qarış-qarış gəzdikcə möhtəşəm yeniliklərin, möcüzələr diyarının sehrkar aləminin bir daha şahidi olursan. Bu gün bu yurd yerinin sakinləri, həqiqətən də, gözləri önündə gündən-günə gözəlləşən, müasirləşən, çiçəklənən, yaşıllığa bürünən Ordubadda yaşadıqları üçün fərəh hissi keçirir, bu ecazkar gözəlliyi, inkişaf və tərəqqi fövqündə mənəvi rahatlığı onlara bəxş edənlərə minnətdarlıq duyğularını ifadə edirlər. Çünki əvvəlki illərdə olduğu kimi, geridə qoyduğumuz 2020-ci ildə də rayonun sosial-iqtisadi inkişafında yüksək göstəricilər əldə edilib, əhalinin rifah halı daha da yüksəlib.

Ordubad Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, 2020-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 60 milyon 300 min 800 manat və ya 2019-cu illə müqayisədə 1,5 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 2,6 faiz artaraq 57 milyon 751 min 800 manat təşkil edib.

Çoxsaylı abidələrlə, dini-tarixi obyektlərlə zəngin olan qədim Ordubadda bu gün 50 min nəfərdən artıq əhali yaşayır. Başını sıldırım dağlara söykəyən rayon bu gün inkişafın ağuşunda gələcəyə uğurla addımlayır. Rayon mərkəzində insanlar üçün hansı şərait yaradılıbsa, ən ucqar kəndlərdə də eyni müasir şəraitlə qarşılaşırıq. Məktəblərdən tutmuş inzibati obyektlərə qədər bütün sosial infrastrukturlar müasir və yaraşıqlı binalarla təmin olunub. Əhalinin rahat yaşayışına xidmət edən quruculuq işləri ötən il də uğurla davam etdirilib. Belə ki, Ordubad şəhərindəki möhtəşəm Bayraq Meydanının, 28 mənzilli yeni yaşayış binasının, Vənənd kəndində tikilən kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, tam orta və musiqi məktəbi binalarının, Dəstə Radio-Televiziya Ötürücü Stansiyasının, Darkənd su dəyirmanının da adı yazılıb. Həmçinin Vənənd kənd yolu yenidən qurulub, içməli su xətti, kommunikasiya xətləri yenilənib. Sözün əsl mənasında, Ordubad bu gün tikinti meydanıdır.

Ordubad-Culfa magistral yolunun çəkilməsi, Ordubad şəhərdaxili yolların və Kotam kənd yolunun yenidən qurulması, Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi, nəinki Ordubadın, bütövlükdə, muxtar respublikanın gələcəkdə daha böyük inkişafına rəvac verəcək mühüm obyektlərdir. 2020-ci ildə Xanağa-Ağrı-Dizə-Vənənd kənd və Darkənd avtomobil yolunun yenidən qurulması başa çatdırılıb, Nüsnüs, Unus və Yuxarı Əndəmic kənd avtomobil yollarının yenidən qurulması davam etdirilib.



“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası istiqamətində, həmçinin Ordubad şəhərində 558 yerlik 1 nömrəli tam orta məktəbin binasında yenidənqurma işləri aparılıb. Şəhərdə stadionun tikintisi, Cümə məscidinin təmiri davam etdirilib. Eləcə də yenidən qurulan uşaq xəstəxanasında, tikilən “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin rayon filialında işlər uğurla davam etdirilib. Böyüklüyünə-kiçikliyinə fərq qoyulmadan kəndlər də unudulmayıb. Belə ki, Nüsnüs kəndində 414 şagird yerlik yeni məktəb binası yenidən qurulub, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının tikintisi başa çatdırılıb. Yuxarı Əndəmic kəndində də kompleks quruculuq tədbirləri aparılıb.

Harada təhsil varsa, orada inkişaf davamlı olacaq, təkcə bu günün yox, gələcəyin potensialı formalaşacaq. Yaxşı təhsil ənənələrinin formalaşması Ordubadı gələcək uğurlara əmin addımlarla aparır. Hazırda rayonda 31 tam orta, 2 ümumi orta, 1 internat məktəbi, 1 peşə məktəbi və 4 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərir. Qeyd etdiyimiz kimi, aparılan quruculuq işlərinin əsasında təhsil müəssisələrinin yenidən qurulması və müasir maddi-texniki bazanın formalaşdırılması dayanır. Bütün bunların nəticəsidir ki, hər il qəbul imtahanlarında yüksək bal toplayan ordubadlı abituriyentlərin sayı artır. Ötən il 28 məzunun 500-700 arası bal toplaması da dediklərimizi təsdiq edir.





Ordubad rayonu ənənəvi kənd təsərrüfatı bölgəsidir. Genişmiqyaslı quruculuq və sosial-iqtisadi inkişaf tədbirlərinin əhatəsində ordubadlılar sabaha daha böyük inamla yaşayır, qurub-yaradır, bol məhsul istehsal edirlər. Əvvəlki illərdə olduğu kimi, ötən il də aqrar sahədə bir sıra uğurlara nail olunub. 2020-ci ildə kənd təsərrüfatında məhsuldarlığın artırılmasına son illərdə qəbul olunmuş Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası müsbət təsir göstərib və aqrar sahənin davamlı inkişafı təmin olunub. 2020-ci ildə rayonda 46 milyon 282 min 100 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib ki, bu da 2019-cu illə müqayisədə 5,2 faiz çoxdur.

Məhsul istehsalına gəldikdə isə 2020-ci ildə rayonda 1994 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 5630 ton məhsul, o cümlədən 731 hektar sahədən 2098 ton buğda, 1073 hektar sahədən 3037 ton arpa, 190 hektar sahədən 495 ton dənli-paxlalılar, 580 hektar sahədən 8573 ton kartof, 618 hektar sahədən 5316 ton tərəvəz, 15 hektar sahədən 108 ton bostan məhsulları, meyvə bağlarından 5200 ton meyvə, üzüm bağlarından 301 ton məhsul yığılıb. Bu diyarın torpağı meyvəçilik üçün çox əlverişlidir. Əbəs yerə deyil ki, əzəldən bəri Ordubad meyvəçilik üzrə böyük şöhrətə malikdir. Sakinlər də bu sahədə zəngin təcrübə qazanıblar. Hazırda Ordubadda 745 hektarlıq meyvə bağları mövcuddur ki, onun 721 hektarı barverəndir. Ötən il meyvə bağlarından 5200 ton məhsul yığılıb.

Bağlar diyarı Ordubadda ekoloji tarazlığın qorunması hər zaman diqqət mərkəzində saxlanılıb. Buna görədir ki, hər il rayonda yeni yaşıllıq zolaqları yaradılır, mövcud yaşıllıqlara aqrotexniki qulluq davam etdirilir.

Torpağa çəkilən zəhmətin itməməsi ilə əlaqədar vacib amillərin önündə suvarma suyu dayanır. Meliorasiya və irriqasiya vəziyyətinin yaxşılaşdırılması məqsədilə mövcud nasos stansiyalarında təmir işləri vaxtlı-vaxtında aparılır, kanal və arxların lildən təmizlənməsi diqqətdə saxlanılır. Eləcə də sakinlərin içməli suya tələbatı etibarlı şəkildə ödənilir. Rayonda qurulan sutəmizləyici qurğular kompleksinin bu baxımdan mühüm əhəmiyyəti var.

Rayonda sağlam mənəvi-psixoloji mühit, işgüzar və mütəşəkkil abhava mövcuddur. Çünki bütün sahələrin inkişafı diqqətdə saxlanılır, məskunlaşma dinamikası artır. 2020-ci ildə görülmüş işlər əhalinin məşğulluq məsələlərinin həllinə də öz təsirini göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası rayonda işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaradıb. 2020-ci ildə rayonda 25 yeni iş yeri açılıb.

*Ümumiyyətlə, Ordubad ecazkar mənzərələri, qədim məhəllələri, tarixi abidələri, qocaman çinarları ilə bənzəri olmayan bir diyardır. Rahat yolları, müasir sosial obyektləri və bir də əhalinin qurub-yaratmaq əzmi və zəhmətsevərliyi bu diyarın gözəlliklərinə hər il yeni naxışlar vurur, hüsnünü yeni çalarlarla bəzəyir. 2020-ci ildə hüsnünə yeni gözəlliklər qatan Ordubad gələcəyə daha böyük uğurlarla addımlayır.*

**Gülcamal TAHİROVA**

# Kənd təsərrüfatı sahəsində işlər davam etdirilib

***Muxtar respublikada kənd təsərrüfatı sahəsində həyata keçirilən işlər yanvar ayında da davam etdirilib. Belə ki, yeni ilin ilk ayında nazirliyin illik iş planı təsdiq edilib, kənd təsərrüfatı işlərinin gedişi ilə əlaqədar vəzifələr müəyyənləşdirilib, müşavirələr, tarla seminarları keçirilib və maarifləndirmə tədbirləri aparılıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”nın müvafiq bəndlərinin icrası istiqamətində nazirliyin əməkdaşları Naxçıvan şəhəri və Kəngərli rayonunda torpaq mülkiyyətçiləri və sahibkarların iştirakı ilə torpaq münbitliyinin artırılmasında görüləcək tədbirlər barədə seminar-müşavirələr keçirib, onlara məsləhətlər verib və bukletlər paylayıblar. Cari ildə yaz əkinlərinin daha optimal müddətdə başa çatdırılması, əkin dövründə baş verə biləcək çatışmazlıqların qısa zamanda aradan qaldırılması üçün rayonlarda yaz əkinlərində iştirak edəcək texnikaların texniki vəziyyətinin diqqətdə saxlanılması ilə bağlı texnika sahibləri ilə fərdi söhbətlər aparılıb.



Ötən ay “Araz” Elm-İstehsalat Birliyinin illik iş planı elmi şuranın iclasında müzakirə olunaraq təsdiq edilib. Birliyin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsi tərəfindən mülkiyyətçilərin təqdim etdiyi 4 torpaq nümunəsi analiz olunaraq onlara yazılı məlumat verilib. Mütəxəssislər tərəfindən hazırlanan “Naxçıvan Muxtar Respublikası şəraitində buğda hibridlərinin xəstəliklərə davamlılığının öyrənilməsi” adlı elmi məqalə Ukrayna Respublikası V.V.Dokuçayev adına Xarkov Milli Aqrar Universitetinin “Planeta-Print” jurnalında dərc edilib.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri tərəfindən zərərvericilərin aşkarlanması üçün Naxçıvan şəhərinin ətraf ərazilərində müşahidələr aparıblar. Zərərvericilər aşkarlanan sahələrdə sink fosfid kimyəvi preparatından istifadə etməklə aldadıcı yem hazırlanıb, mübarizə tədbirləri üçün ailə təsərrüfatı rəhbərləri və fermerlərin iştirakı ilə maarifləndirmə tədbirləri keçirilib. Ötən ay 38 ayrı-ayrı ailə təsərrüfatı rəhbərləri, fermerlər tərəfindən istixanalarda və müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə gətirilən nümunələrə baxılıb, mübarizə tədbiri olaraq lazımi məsləhət və tövsiyələr verilib. Toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analizdən keçirilib, nəticəsi haqqında onlara analiz aktı təqdim olunub.

Heyvandarlıqda qışlama mövsümünün gedişi və heyvanlara zoobaytar qaydalarına uyğun qulluq edilməsi, qış otlaqlarından səmərəli istifadə, otlaqlarda növbəli otarmanın təşkili və heyvanlar arasında baytarlıq tədbirlərinin aparılması ilə bağlı sahibkarlarla maarifləndirici müşavirələr keçirilib. Culfa rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları ilə birgə özünüməşğulluq proqramına uyğun olaraq aztəminatlı ailələrə verilmiş mal-qaranın zoobaytar qaydalarına uyğun yemləndirilməsi və saxlanılması istiqamətində ailə təsərrüfatı sahibləri ilə maarifləndirici görüş təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***



*Son illər Azərbaycan iqtisadiyyatının digər sahələrində olduğu kimi, turizm sektorunda da inkişaf tendensiyası özünü qabarıq şəkildə göstərir. Ümumiyyətlə, turizm sektoru ölkəmiz üçün bir neçə cəhətdən – iqtisadiyyatın güclənməsi, bölgələrin inkişafı və Azərbaycanın bütün dünyada tanınması baxımından səciyyəvidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir".***

*Dövlət proqramı icra olunur*

# Turizmin inkişafı sahəsində tədbirlər davam etdirilir

Naxçıvan da çoxəsrlik tarixi, mədəniyyət nümunələrinin sayı, qonaqpərvərlik ənənələri və zəngin təbii ehtiyatları ilə əlverişli turizm potensialına malik qədim diyardır. Muxtar respublikamızın turizm potensialından istifadə isə daim diqqət mərkəzində saxlanılan mühüm məsələlərdəndir. Milli mədəniyyət nümunələrinin bərpası ilə yanaşı, müasir turizm infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən irimiqyaslı layihələr Naxçıvanın turist cəlbediciliyini artıran başlıca amildir. Muxtar respublikanın turizm potensialından tam istifadə edilməsi məqsədilə hazırlanan və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası bu sahənin inkişafı üçün yeni imkanlar yaratmaqdadır.

Proqramın icrası 2020-ci ildə də diqqətdə saxlanılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri mayın 10-da Sahil Parkının, noyabrın 20-də Duzdağ Fizioterapiya Mərkəzinin inzibati binasının istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmişdir. Həmçinin muxtar respublikanın qədim tarixini özündə əks etdirən nadir memarlıq abidələrinin



qorunması ilə bağlı tədbirlər də davam etdirilmiş, Ali Məclisin Sədri mayın 27-də Şahtaxtı kəndindəki Şərq hamamında, aprelin 15-də Yusif Küseyir oğlu türbəsində aparılan bərpa işləri ilə maraqlanmış, həmin gün Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpa layihəsinə baxmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən muxtar respublikada turizmin inkişafı və perspektivləri, eləcə də turizm marşrutları üzrə bir neçə abidənin daxil edildiyi 4 monoqrafiyanın nəşr olunması bu sahədə elmi fəaliyyətin də davam etdirilməsinin mühüm təzahürüdür.

Dünya ölkələrinin turizm təcrübəsi mühüm bir faktı təsdiq edir ki, yerli xüsusiyyətli mədəni potensialdan tam istifadə edilməsində əsas məqsəd mədəni turizm mənbələrinə maraqlı turistlər üçün təqdim edilən xidmətlərin həm iqtisadi cəhətdən gəlir gətirməsi, həm də bu mənbələrin qorunub saxlanmasıdır. Bəhs edilən mənbələr içərisində milli mətbəx nümunələrinin davamlı nümayişi və turistlərə təqdim olunması çox mühüm əhəmiyyət kəsb etməkdədir. Turizm tədbirləri çərçivəsində iqtisadi dəyər qazandırılan milli mətbəx nümunələrinin davamlı nümayişi, eyni zamanda bu nümunələrin unudulmasının qarşısını alır və gələcək nəsillərə ötürülməsini təmin edir. Qeyd etmək lazımdır ki, tarixboyu özünəməxsusluğu ilə seçilən Naxçıvan mətbəxi, müasir dövrümüzdə də qədim diyarımızı ziyarət edənləri bir daha bu məkana gəlməyə sövq edən ən dəyərli nümunələr sırasındadır. Yenidənqurma və bərpadan sonra mayın 5-də Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilən Naxçıvan şəhər buzxanasında "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi üçün iş şəraiti yaradılmışdır. Ali Məclisin Sədri demişdir: ***"Buzxana abidəsinin tarixi görkəmi qorunub saxlanılmaqla bərpa olunması ona ikinci həyat vermişdir. Abidədə xalqımızın milli dəyərlərinin bir hissəsi olan kulinariya mədəniyyəti yaşadılacaq və təbliğ olunacaqdır..."***



Yeni yaradılmış "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin nəzdində "Milli Yeməklər" İctimai İaşə Məhdud Məsuliyyətli Cəmiyyəti mayın 12-də vergi orqanlarında rəsmi qeydiyyata alınmışdır. Mərkəz tərəfindən unudulmaqda olan mətbəx nümunələri ilə yanaşı, milli mətbəximizə aid adət-ənənələr və folklor nümunələrinin toplanması işi davam etdirilmişdir. Milli yeməklərimizin təbliğ edildiyi 5 televiziya verilişinin hazırlanmasında iştirak edilmiş və bu yeməklərin hazırlanma qaydaları əyani şəkildə nümayiş olunmuşdur. Dekabrın 10-da Naxçıvan Dövlət Universitetində Texnologiya müəllimliyi ixtisası üzrə təhsil alan tələbələr üçün "Naxçıvanın milli mətbəxi" mövzusunda seminarın keçirilməsi isə gənclərə kulinariya mədəniyyətinin öyrədilməsinin diqqət mərkəzində saxlanıldığından xəbər verir.

Müasir dövrümüzdə bir çox sosial-iqtisadi sahədə mühüm nailiyyətlər əldə etmək üçün məhsulun istehsal olunması ilə yanaşı, onun nümayişi də böyük rol oynayır. Muxtar respublikamızda da turizm məhsullarının təbliği və turistlərin məlumatlılığının artırılması diqqət mərkəzində saxlanılır. Dövlət proqramının icrası məqsədilə "Naxçıvan Muxtar Respublikasının 2020-ci il üçün turizm təqvimi" hazırlanmış və Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində yerləşdirilmişdir. 2020-ci ildə Sahil Parkı Naxçıvan şəhərinin turist xəritəsinə daxil edilmiş, park üçün buklet nəşr olunmuş, "Naxçıvan Muxtar Respublikasının bələdçi kitabı"nın hazırlanması davam etdirilmişdir. Eyni zamanda turizm marşrutlarının bukletləri, Naxçıvan Muxtar Respublikasının və Naxçıvan şəhərinin turist xəritələri, Naxçıvan Muxtar Respublikasının dini turizm xəritəsi rus dilinə tərcümə olunmuşdur.

2020-ci il fevral ayının 15-də İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Azərbaycanın İrandakı səfirliyi ilə "Aysan Pərvaz" şirkətinin təşkil etdiyi İran və Azərbaycan üzrə ikinci ixtisaslaşmış turizm simpoziumunda Naxçıvan Muxtar Respublikası təmsil olunmuşdur. Muxtar respublikanın turizm potensialı haqqında simpozium iştirakçılarına geniş məlumat verilmiş, yerli istehsal məhsullarından ibarət hədiyyə paketləri və reklam-informasiya materialları simpoziumda iştirak edən rəsmi nümayəndələrə təqdim olunmuşdur. Həmçinin simpoziumda ölkəmizin, eləcə də Naxçıvan Muxtar Respublikasının turizm potensialı əks olunan videoçarxlar nümayiş etdirilmişdir.

Turizm sektoru üçün müasir dövrün tələbi informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə yolu ilə mövcud potensialın ətraflı nümayiş olunmasıdır. Reklam-informasiya materiallarının əhatəliliyi və çeşidliliyi turizm sahəsində təbliğat işini faydalı edən mühüm faktorlardır. Dövlət proqramının icrasına uyğun olaraq 2020-ci ildə Naxçıvan Turizm İnformasiya Mərkəzinin sosial şəbəkə hesablarına 600-dən çox məlumat daxil edilmiş, 362 mindən çox baxış sayı qeydə alınmışdır. Həmçinin mərkəzin "YouTube" kanalına turizmlə bağlı 7 videoçarx yerləşdirilmişdir. Mərkəzə müraciət edən 28 nəfərin reklam-informasiya materialları ilə tanışlığı təmin edilmiş, onlara Naxçıvan şəhərinin turist xəritəsi təqdim olunmuşdur. Mərkəzin elektron poçt ünvanına daxil olan 52, "Facebook" sosial şəbəkəsinə daxil olan 33, "Instagram" sosial şəbəkəsinə daxil olan 56 müraciət aidiyyəti üzrə cavablandırılmışdır. Mərkəz tərəfindən Azərbaycanda və 20-dən çox xarici ölkədə fəaliyyət göstərən 200-dən çox mehmanxana və turoperatorun elektron poçt ünvanlarına, bölgələrdə fəaliyyət göstərən 12 turizm informasiya mərkəzinə, ümumilikdə, 5 minə yaxın məlumat göndərilmişdir. Göndərilən məlumatlar içərisində Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində müasir infrastrukturun formalaşdırılması, Xizək kompleksinin yaradılması barədə informasiyanın öz əksini tapması xüsusi diqqətdə saxlanılmış, eyni zamanda Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, sosial şəbəkə hesablarında bölgənin təbliği istiqamətində tədbirlər davam etdirilmişdir.

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi Naxçıvan Muxtar Respublikasında kənd turizminin simvoluna çevrilən və bənzərsiz bir ərazidə yerləşən mühüm turizm obyektidir. 2020-ci ildə bölgədə yerləşən 8 hektar ərazidə tinglə, 120 hektar ərazidə isə toxumla yaşıllaşdırma işləri aparılmışdır. Muxtar respublikada kənd turizminin inkişafına nail olmaq məqsədilə digər bölgələrdə də araşdırma işləri davam etdirilmiş, bu sahə üçün əlverişli əhəmiyyətə malik 26 yararlı kənd evi müəyyən olunmuşdur.

Fevral ayında Ağbulaq İstirahət Mərkəzində ali və orta ixtisas təhsili müəssisələrinin 120 tələbəsinin iştirakı ilə "Qış məktəbi" təşkil olunmuşdur. Proqramın icrası məqsədilə digər istiqamətlərdə də ekskursiyalar davam etdirilmişdir. 2020-ci ildə muxtar respublika idmançılarının iştirakı ilə Naxçıvan şəhərindəki muzeylərə, Nəbatat bağına, Qarabağlar Türbə Kompleksinə ekskursiyalar təşkil olunmuşdur. Ali təhsil müəssisələrində təhsil alan 20 əcnəbi tələbə üçün "Welcome to Nakhchivan" və "Naxçıvanı tanıyaq" devizləri ilə Şərur rayonunda yerləşən muzeylərə və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə, piyada marşrutlarının proqramına əsasən "Turizm könüllüsü" layihəsinin iştirakçıları üçün martın 6-da Naxçıvan, dekabrın 8-də Ordubad şəhərlərinə ekskursiyalar təşkil edilmişdir. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının turizm potensialının təbliği də diqqətdə saxlanılmışdır. Belə ki, Dövlət proqramının icrası istiqamətində ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin iştirakı ilə Milli Parkda, ümumilikdə, 4 ekskursiya keçirilmişdir.

Nəqliyyat və turizm sektorları bir-birinin inkişafını şərtləndirən mühüm sahələrdir. Çünki nəqliyyat sektorunda müasir dövrün tələblərinə uyğun təqdim edilən yeni xidmətlər turizmin canlanmasına, turizmin genişlənməsi isə nəqliyyat sahəsinin inkişafına gətirib çıxarır. Dövlət proqramında turistlərə xidmət göstərən nəqliyyat vasitələrinin təklif etdiyi xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Bu istiqamətdə 2020-ci il elektron taksi xidmətinin fəaliyyətə başlaması ilə əlamətdar olmuşdur. Mobil operatorlardan 288 qısa nömrəsinə zəng etməklə sifariş olunan və vahid mərkəzdən idarə edilən xidmətin üstünlüyü sifarişçiyə ən yaxın məsafədən mənzilbaşına çatmağa zəmanət verməsidir. Yeni fəaliyyətə başlayan xidmət muxtar respublikamıza səfər etmək istəyən turistlər üçün rahatlıq və əminlik vəd etməkdədir. Onu da qeyd etmək lazımdır ki, proqramın icrası məqsədilə turistlərə xidmət göstərən nəqliyyat vasitələrində xidmətin keyfiyyətinin yüksəldilməsi üçün hazırlanmış tədbirlər planına əsasən sərnişindaşıma fəaliyyəti göstərən taksi və avtobus sürücülərinin muzey günlərinin qrafiki tərtib olunmuş, oktyabr ayından başlayaraq sürücülərin muzeylərə ekskursiyaları təşkil edilmişdir. Həmçinin sürücülərə muxtar respublikanın turizm potensialını əks etdirən reklam-informasiya materialları paylanmış, xidmət mədəniyyətinin yüksəldilməsi ilə əlaqədar maarifləndirici söhbətlər aparılmışdır.

Turizmin inkişafına təsir edən mühüm faktorlardan biri də bu sahədə mütəxəssis hazırlığının mövcud standartlara uyğun həyata keçirilməsidir. Bu sektorun sosial əhəmiyyəti məşğulluğun təmin olunmasında əsaslı rol oynamasıdır. Turizm sahəsində məşğulluğu təmin edilən şəxslərin ixtisas hazırlığı bu istiqamətdə inkişafa təsir göstərən başlıca amillərdəndir. Dövlət proqramının icrası istiqamətində 2020-ci ildə Turizm agenti ixtisası üzrə peşə kursunu Naxçıvan Şəhər Peşə Liseyində 9, Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 21 olmaqla, ümumilikdə, 30 müdavim müvəffəqiyyətlə başa vuraraq təhsil sənədi almışdır. 14 yanvar 2020-ci il tarixdən 21 fevral 2020-ci il tarixədək ictimai iaşə obyektlərində və hotellərdə personalın peşəkarlıq




səviyyəsinin artırılması məqsədilə həyata keçirilən "Peşəkar ofisiant" layihəsi çərçivəsində iştirakçılarla, ümumilikdə,12 təlim və praktik məşğələ təşkil edilmişdir. Layihə iştirakçıları üçün sertifikasiya imtahanı keçirilmiş, ən yüksək nəticə göstərən iştirakçılara Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin müvafiq sertifikatı təqdim olunmuşdur. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 avqust tarixli Qərarı ilə təsdiq edilmiş "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları"nın tətbiqi mövzusunda onlayn seminar, eləcə də "Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişaf perspektivləri" mövzusunda onlayn konfrans keçirilmişdir. Bu tədbirlərdə muxtar respublikada fəaliyyət göstərən mehmanxana və mehmanxanatipli obyektlərin və digər turizm sektoru nümayəndələrinin, eləcə də turizm könüllülərinin iştirakı təmin olunmuşdur. Turizm Departamentində yaradılan komissiya tərəfindən oktyabr ayında mehmanxanalarda monitorinqlər keçirilmiş, işçi heyətə nəzəri-təcrübi tövsiyələr verilmiş, məlumatlandırıcı və xəbərdaredici plakat nümunələri təqdim edilmişdir.

*Dövlət proqramının icrasına uyğun olaraq həyata keçirilən tədbirlər bu sahədə uğurların qazanılmasına səbəb olmuşdur. Bu uğurlar deməyə əsas verir ki, qarşıdakı iki ildə muxtar respublikada turizmin inkişafı keyfiyyətcə yeni mərhələyə daxil olacaqdır.*

**"Şərq qapısı"**

*O, hər gün qürurla üzərində daşıdığı formasını geyinib işə gedirdi. İşdən asudə vaxt tapdıqda isə hərbi hissədə Xocalı faciəsinin qurbanlarının xatirəsinə həsr olunmuş guşənin qarşısında durub fikrə dalırdı. Acı təəssüf, kədər və qəzəb ilə şəkillərə baxanda hər dəfə sinəsinin sol tərəfindən qəribə bir ağrı başlayırdı. Bu şəkillər onu kədərləndirməklə yanaşı, həm də Vətən borcunu xatırladırdı. Hər gün özünə bu sualı verirdi: – Sən bu Vətən üçün nə etmisən?*

*Estafet*

## Vətən borcunu hər şeydən əziz tutan qəhrəmanımız



Bu düşüncələrə dalan II Qarabağ müharibəsində canından keçəcək Niyaməddin Qulu oğlu İsgəndərov idi. Niyaməddin 1985-ci il dekabr ayının 6-sı şaxtalı bir gündə Kəngərli rayonunun Xok kəndində dünyaya gələrək ailəsinə isti nəfəs olmuşdu. Özündən başqa bacı və qardaşının əhatəsində sevgi və nəvazişlə boya-başa çatan bu gənc ailəsində hamıdan çox anasına bağlı idi. Sadə, zəhmətkeş bir ailənin qürurlu övladı olan Niyaməddin xasiyyətinə görə kənddə də hamı tərəfindən sevilirdi. O, 3 il Naxçıvanda Daxili Qoşunlarda müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi sonra öz istəyi ilə oradan ayrılaraq sənədlərini Quru Qoşunlara verərək "N" hərbi hissədə xidmətinə davam etmişdi. O, xarakteri etibarilə çox nikbin biri idi. Həyatda heç bir çətinlik onu ruhdan salmazdı. Ən ağır dərdi isə Qarabağ həsrəti idi. Quru Qoşunlarda xidmət etmək istəyi də düşməndən qisas almaq arzusundan irəli gəlirdi. Elə buna görə də müharibə başlayanda könüllü olaraq adını Qarabağa döyüşməyə gedən igidlərin siyahısına yazdırmışdı. İllərdir, ürəyində olan ağrı bu gün azalmışdı. O, çox sevinirdi ki artıq neçə ildir, cavabsız qalan sualına cavab tapmağın vaxtı çatıb. Niyaməddin Vətənə olan borcunu ödəmək üçün düşmən işğalı altında olan torpaqlarımızın azadlığı uğrunda döyüşə gedirdi. Artıq hərbi hissədəki Xocalı soyqırımı şəhidlərinin şəkillərinə baxanda əzab çəkməyəcəkdi, çünki onların qisasını alacaqdı.

Bu sevinclə evlərinə zəng etdi. Doğmaları onu heç bir vaxt bu qədər sevincli görməmişdi. Niyaməddin, sanki müharibəyə deyil, toy-düyünə gedirdi. O, nə ailə quranda, nə də ki, övladları Aytac və Mətanət dünyaya gələndə heç bu qədər sevinməmişdi. Axı Niyaməddin üçün Vətən hər şeydən, hamıdan öncə gəlirdi. İndi o bu sevdası uğrunda mübarizə aparacaqdı. Anamız Azərbaycanı öz bütövlüyünə qovuşdurarkən Vətən borcunu layiqincə yerinə yetirəcəkdi.

Niyaməddin bu sevinclə oktyabrın 18-də – müharibənin qızğın bir vaxtında Qarabağa getdi, döyüşlərdə fəal iştirak etdi. Hər bir kəndi, qəsəbəni, rayonu, şəhəri azad etdikcə Vətənə olan borcunun layiqincə yerinə yetirilməyinin verdiyi sevinc onu daha cəsur bir əsgərə çevirirdi. O, döyüş yoldaşları ilə bir an belə, durmadan düşmənin Vətənə dikilən xain gözlərini oyaraq irəliləyirdi. Bu sevinc onu, sanki qanadlandırırdı. Hər gün anası Bəyim xalaya zəng edib yaşadığı sevinci onunla paylaşırdı. Niyaməddin axırıncı dəfə ailəsi ilə oktyabrın 28-dən 29-na keçən gecə danışmışdı. Hər şeyin yaxşı olduğunu bildirmişdi. Sonra ailəsi ondan 24 gün xəbər ala bilməmişdi. 24 gün Bəyim xala telefon başında oturub oğlunun zəngini gözləmişdi. Noyabrın 21-də ailəsinə Niyaməddinin Xocavənd uğrunda döyüş zamanı qəhrəmancasına şəhid olduğu xəbəri gəlmişdi. Niyaməddinin müqəddəs ruhu azadlıq göyərçini olaraq Qarabağın səmasında şəhadətə yüksəlmişdi. Noyabrın 22-də şəhidin cənazəsi Naxçıvana gətirilərək ehtiramla dəfn edildi.

Niyaməddin Qulu oğlu İsgəndərov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu.

Şəhid qardaşım, sən artıq borcunu qanınla, canınla ödədiyin Vətənin yenilməz, məğrur, igid qəhrəmanısan. Qanla ödədiyin Vətən borcu sənin adını tariximizin şanlı səhifəsinə yazdı. İndi bu xalq 30 illik həsrətdən sonra qovuşduğu azadlığını sizlərə borcludur! Ruhunuz qarşısında sonsuz ehtiramla baş əyirik! Müjdələndiyiniz cənnətdə rahat uyuyun, çünki Qarabağda qazandığınız qələbə Vətənimizi əbədi dirçəltdi!

**İlahə ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbəsi*

## "Naxçıvan" Universiteti Türkiyə Təqaüd Proqramı çərçivəsində əməkdaşlığı genişləndirir



*Türkiyə Böyük Millət Məclisinin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin koordinatorları Engin Vural və Sevilay Yıldırım Naxçıvan Muxtar Respublikasına səfər çərçivəsində "Naxçıvan" Universitetində də olublar.*

Rektor, dosent Nurlana Əliyeva qonaqları salamlayıb, universitetin yaranması, fəaliyyəti və mütəxəssis hazırlığı barədə onlara məlumat verib. Qeyd edib ki, 1999-cu ildən fəaliyyətə başlayan "Naxçıvan" Universiteti Azərbaycanın paytaxtı Bakı şəhərindən kənarda yerləşən yeganə özəl ali təhsil ocağıdır. Universitetdə 4 fakültə, 10 kafedra, 6 şöbə fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı sayəsində müasir universitet şəhərciyinə malik bu ali təhsil ocağı hazırda dünyanın 50-dən artıq universiteti ilə əməkdaşlıq edir.

Qonaqlar ali təhsil ocağında yüksək qonaqpərvərliklə qarşılandıqlarına görə minnətdarlıqlarını bildiriblər.

Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin koordinatorları Türkiyə Təqaüd Proqramı haqqında məlumat verərək qeyd ediblər ki, bu, tələbə və tədqiqatçılara Türkiyənin ən tanınmış universitetlərində təqaüd təhsili və tədqiqat imkanı verən hərtərəfli və dövlət tərəfindən dəstəklənən rəqabətli bir təqaüd proqramıdır. Proqrama bakalavr, magistr, doktorantura və tədqiqat proqramları üzrə internet üzərindən 8 dildə müraciət ünvanlamaq mümkündür.

Sonra qonaqlar universitet şəhərciyi ilə tanış olublar.

**Seyfur HACIMURADOV**

## Naxçıvanlı tədqiqatçılar beynəlxalq müsabiqədə diploma layiq görülüblər







AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev, Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva, institut əməkdaşları Turan Həşimova və Elmar Baxşəliyev Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən "Mərkəzi Asiyanın qədim və orta əsr mədəniyyətləri (şəhərləşmə və maldar cəmiyyətlərin təşəkkülü, inkişafı və qarşılıqlı əlaqəsi)" mövzusunda beynəlxalq onlayn konfransda iştirak ediblər.

Rusiya Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun, Böyük Pyotr adına Antropologiya və Etnoqrafiya Muzeyinin, Şərq Əlyazmaları İnstitutunun və Dövlət Ermitajının birgə təşkilatçılığı ilə keçirilən konfransda Naxçıvanın qədim dövr arxeologiyası ilə bağlı ən son elmi yeniliklər beynəlxalq elmi ictimaiyyətə təqdim olunub, əməkdaşlarımız Naxçıvan arxeologiyası ilə bağlı çoxsaylı sualları cavablandırıblar.

Konfransın Təşkilat Komitəsi tərəfindən AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Naxçıvanın Neolit mədəniyyətinin Orta Şərqlə əlaqələri" və dosent Zeynəb Quliyevanın "Naxçıvanın Eneolit mədəniyyətinin Yaxın Şərqlə əlaqələri" məqalələrinin elmi əhəmiyyəti nəzərə alınaraq Ümumrusiya Elmi Tədqiqatlar Cəmiyyəti tərəfindən Moskva şəhərində keçirilən müsabiqəyə təqdim edilib.

Elmi-tədqiqat işlərinin 31-ci beynəlxalq müsabiqəsində uğurla iştirak edən alimlər sertifikatla mükafatlandırılıb. 518 tədqiqatçının iştirak etdiyi müsabiqədə əməkdaşlarımızın təqdim etdiyi hər iki məqalə maraqla qarşılanıb və arxeologiya üzrə məqalələr nominasiyasında II dərəcəli diploma layiq görülüb.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 4 fevral 2021-ci il tarixli Qərarı ilə kənd təsərrüfatı sahəsində "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən yerinə yetiriləcək xidmətlərin qiymətləri" təsdiq edilmişdir. Göstərilən xidmətlərin qiymətləri aşağıdakılardır:

| S/s | Xidmətin adı | Ölçü vahidi | Xidmətin qiyməti (manatla) |
|---|---|---|---|
| 1. | Şumlama | hektar | 45,00 |
| 2. | Tapanlama (malalama) | hektar | 18,00 |
| 3. | Arx açılması (mora) | hektar | 11,00 |
| 4. | Taxıl səpini | hektar | 19,00 |
| 5. | Taxıl səpini (şırımaçanla) | hektar | 34,00 |
| 6. | Ot biçini (özüyeriyənlə) | hektar | 34,00 |
| 7. | Ot biçini | hektar | 31,00 |
| 8. | Taxıl biçini | hektar | 44,00 |
| 9. | Qarğıdalı biçini | hektar | 55,00 |
| 10. | Ot və küləşin preslənməsi | 1000 ədəd | 270,00 |
| 11. | Məhsulun daşınması | 15 km-dək | 23,00 |
| 12. | Gübrə səpini | hektar | 11,00 |
| 13. | Kimyəvi mübarizə tədbirləri | hektar | 16,00 |
| 14. | Bağçılıqda cərgələrarası kimyəvi mübarizə tədbirləri | hektar | 32,00 |
| 15. | Dırmıqlama | hektar | 17,00 |
| 16. | Çizel-şırım açma | hektar | 22,00 |
| 17. | Kartof əkini | hektar | 55,00 |
| 18. | Kartofun dibdoldurması | hektar | 55,00 |
| 19. | Kartofun çıxarılması | hektar | 55,00 |
| 20. | Kəsəkəzmə | hektar | 56,00 |

## Gənclərlə iş günün tələbləri səviyyəsində qurulur

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən ötən ay da gənclərlə iş diqqətdə saxlanılmış, bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "20 Yanvar – şəhidlik zirvəsi" mövzusunda təşkil olunmuş onlayn konfransda Naxçıvan gənclərinin iştirakı təmin edilmişdir. Gənclərə milli-mənəvi dəyərlərin təbliğ olunması məqsədilə Milli Dəyərlər Muzeyinə ekskursiya təşkil olunmuşdur. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinə qəbul olmuş əcnəbi tələbələri muxtar respublikanın turizm məkanları, tarixi abidələri və muzeyləri ilə tanış etmək və ekskursiyalar zamanı çəkilmiş fotoşəkillərin müxtəlif sosial şəbəkələrdə paylaşılaraq muxtar respublikanın turizm potensialının tanıdılmasında onların fəallığının artırılması məqsədilə "Welcome to Nakhchivan!" adı altında Şahbuz Dövlət Təbiət Qoruğuna və Ağbulaq İstirahət Mərkəzinə ekskursiyaları təşkil edilmişdir.



Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxslərin, Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən "Qəhrəmanlar unudulmur" adlı videoçarxlar hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

Hesabat ayında muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının 2020-ci ildə görülmüş işlər və 2021-ci ildə qarşıda duran vəzifələrlə bağlı iclasları keçirilmiş, idman federasiyalarının məşqçi-müəllim və idmançılarının muzeylərə ekskursiyaları təşkil olunmuşdur. Naxçıvan Futbol Federasiyasının koordinatoru Amil Ağacanovun Türkiyənin Bandırma şəhərində təşkil edilən nəzəri və praktik kurslarda iştirakı təmin edilmişdir. "Şəhidlər ölməz, Vətən bölünməz!" devizi altında Azərbaycan və Türkiyə şahmatçıları arasında keçirilən onlayn yoldaşlıq görüşündə Sədərək Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin komandası iştirak etmiş, Şərur Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin komandası ilə Mersin Modern Şahmat Klubu arasında yoldaşlıq görüşü keçirilmişdir.

"2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman sahəsində investisiya mühitinin yaradılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, pullu xidmət növlərinin inkişaf etdirilməsi məqsədilə Naxçıvan şəhərində "İdman malları" mağazası istifadəyə verilmiş, Uzunoba gölünün ətrafında tikilən Təlim-Məşq Kompleksinin tikintisi davam etdirilmişdir.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti*

### İtmişdir

Şərur rayonu, Qışlaqabbas kənd sakini Hüseynov Zakir Hüseyn oğlunun adına verilmiş JN-457B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Abbas Zamanov küçəsi-70 (35-ci məhəllə-94) ünvanında yaşamış İsmayılov Vaqif Hidayət oğlunun adına olan 9162 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 109